Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2024-cü il
“ 23 ” noyabr tarixli
493 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi**

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda “Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanının 7.2-ci bəndinə uyğun olaraq hazırlanmışdır və 2024/2025-ci tədris ilindən başlayaraq Azərbaycan Respublikası Müdafiə Nazirliyinin (bundan sonra – Müdafiə Nazirliyi) strukturuna daxil olan Milli Müdafiə Universitetinin (bundan sonra – Universitet) tabeliyindəki Heydər Əliyev adına Hərbi İnstitutun bakalavriat səviyyəsinə, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursuna, Bakı Hərbi Kollecinə, Gəncə Hərbi Kollecinə, Naxçıvan Hərbi Kollecinə, Heydər Əliyev adına Hərbi Liseyə və Cəmşid Naxçıvanski adına Hərbi Liseyə (bundan sonra – xüsusi təyinatlı təhsil müəssisələri) qəbul olunmuş və həmin müəssisələrdə təhsil alan kursantlara dövlət büdcəsinin vəsaiti hesabına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi ilə bağlı məsələləri tənzimləyir.

1.2. Bu Qaydanın 1.1-ci bəndində ödəmələr dedikdə “Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli 2381 nömrəli Fərmanına əsasən xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan kursantlara verilən birdəfəlik ödəmə, təqaüd, ailə üzvlərinə maddi yardım və hesabda yığılan ödəniş nəzərdə tutulur.

1.3. Bu Qaydaya əsasən xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan kursantlara ödəmələr dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına ödənilir.

1.4. Bu Qaydanın məqsədləri üçün kursantın ailə üzvləri dedikdə:

1.4.1. atası və ya anası;

1.4.2. arvadı (əri);

1.4.3. bu Qaydanın 1.4.1-ci və 1.4.2-ci yarımbəndlərində qeyd edilən ailə üzvləri olmadığı hallarda kursantın himayədə olduğu babası, nənəsi, qardaşı, bacısı və ya qanunla müəyyən edilmiş qaydada himayəçi təyin edilmiş digər şəxs nəzərdə tutulur.

## 2. Birdəfəlik ödəmənin verilməsi

2.1. Xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul olunmuş kursantlara birdəfəlik ödəmə aşağıdakı qaydada ödənilir:

2.1.1. xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul olunmuş kursantların təhsilə başlaması haqqında həmin müəssisənin rəhbərinin müvafiq əmri imzalandıqdan sonra növbəti 15 əməliyyat günü müddətində;

2.1.2. xüsusi təyinatlı təhsil müəssisəsi tərəfindən birdəfəlik ödəmənin məbləği kursantın pul təminatı üçün bu Qaydanın 3-cü hissəsində göstərilən hesaba köçürülür.

## 3. Təhsil alan kursantlara təqaüdün verilməsi

Xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan kursantlara təqaüdün verilməsi Universitet tərəfindən Müdafiə Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmaqla, sistem əhəmiyyətli banklar sırasından müəyyən etdiyi agent bankda (bundan sonra – agent bank) kursantın adına açılmış bank hesabına köçürülməklə tədris ilinin hər ayı üçün növbəti ayın birinci ongünlüyündə həyata keçirilir.

## 4. Təhsil alan kursantların ailə üzvlərinə maddi yardım verilməsi

4.1. Xüsusi təyinatlı təhsil müəssisələrinə təhsil alan kursantların ailə üzvlərinə maddi yardım aşağıdakı qaydada ödənilir:

4.1.1. Universitet tərəfindən bu Qaydanın 1.4-cü bəndində qeyd olunan və kursantın forması bu Qaydaya 1 nömrəli əlavə ilə müəyyən edilən yazılı ərizəsində göstərdiyi şəxslərdən birinin agent bankda açılmış bank hesabına köçürülür;

4.1.2. kursantın təhsil aldığı müddətdə maddi yardım bu Qaydanın 4.1.1-ci yarımbəndinə uyğun olaraq hər ay üçün növbəti ayın birinci ongünlüyündə ödənilir.

## 5. Təhsil alan kursantlar üçün hesabda yığılan ödənişin verilməsi

5.1. Xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan kursantlar üçün ödənişin hesabda yığılması aşağıdakı qaydada həyata keçirilir:

5.1.1. Universitet tərəfindən ödənişlərin yerləşdirilməsi məqsədilə agent bankda bank hesabı açılır;

5.1.2. Universitetlə agent bank arasında bu Qaydaya uyğun olaraq bank xidmətlərinin göstərilməsi, o cümlədən hesabda olan vəsaitin idarə edilməsi və həmin xidmətlərə görə haqqın ödənilməsi və aşağıda göstərilən digər şərtləri özündə əks etdirən forması Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış müqavilə bağlanılır;

5.1.3. bu Qaydanın 5.1.1-ci yarımbəndində qeyd olunan hesabın tərkibində aşağıdakı xüsusi təyinatlı təhsil müəssisələri üçün hesablar açılır:

5.1.3.1. Cəmşid Naxçıvanski adına Hərbi Lisey;

5.1.3.2. Heydər Əliyev adına Hərbi Lisey;

5.1.3.3. Bakı Hərbi Kolleci;

5.1.3.4. Naxçıvan Hərbi Kolleci;

5.1.3.5. Gəncə Hərbi Kolleci;

5.1.3.6. Heydər Əliyev adına Hərbi İnstitut;

5.1.4. bu Qayda ilə əhatə olunan hər bir təhsil alan kursant üçün bu Qaydanın 5.1.3-cü yarımbəndində nəzərdə tutulan müvafiq hesabın tərkibində hər bir təhsil müəssisəsinin kursantı üçün bank hesabı açılır və Universitet tərəfindən hesabın açıldığı vaxtdan etibarən 10 (on) əməliyyat günü müddətində hesabın açılması ilə bağlı forması bu Qaydanın 2 nömrəli əlavəsi ilə müəyyən edilən bildirişə uyğun olaraq kursanta məlumat verilir;

5.1.5. agent bank tərəfindən ödənişlər bu Qaydanın 5.4.1-5.4.3-cü yarımbəndlərində nəzərdə tutulmuş hallarda məzunların bank hesablarına köçürülür.

5.2. Xüsusi təyinatlı təhsil müəssisələrində təhsil alan kursantların Universitet tərəfindən təqdim edilmiş xüsusi təyinatlı təhsil müəssisələri üzrə bölgüsünə əsasən hər rübün birinci ayının ikinci ongünlüyündə bu Qaydanın 5.1.4-cü yarımbəndində qeyd olunan hesaba aylıq vəsaitin məbləği köçürülür.

5.3. Agent bank tərəfindən hər ay bank hesabında yerləşdirilmiş vəsait üzrə təhsil alan kursantın və ya məzunun həmin hesabdan istifadə hüququ yaranan günədək faiz gəlirləri hesablanır. Faiz gəlirlərinin dərəcələri bank hesabı müqaviləsində əks etdirilir. Faiz gəlirləri azı daxili maliyyə bazarlarında yerləşdirilən dövlət istiqrazları üzrə gəlirlilik dərəcəsinə bərabər tutulmaqla müəyyən edilir.

5.4. Bank hesabında yığılmış vəsaitdən kursant tərəfindən istifadə hüququ aşağıdakı hallarda yaranır:

5.4.1. hərbi liseyləri bitirmiş məzunlar üçün Heydər Əliyev adına Hərbi İnstitutun bakalavriat səviyyəsinə, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursuna (bundan sonra – ali təhsil müəssisəsi) və ya Bakı Hərbi Kollecinə, Gəncə Hərbi Kollecinə, Naxçıvan Hərbi Kollecinə (bundan sonra – hərbi kollec) qəbul olunaraq təhsilə başladıqda, habelə bu Qaydanın 5.4.2-ci və 5.4.3-cü yarımbəndlərinə uyğun olaraq vəzifənin icrasına başladıqda;

5.4.2. hərbi kolleci bitirmiş məzunlar üçün Azərbaycan Ordusunda müvafiq qaydada gizir (miçman) kimi vəzifəyə təyin edilərək həmin vəzifənin icrasına başladıqda;

5.4.3. ali təhsil müəssisəsini bitirmiş məzunlar üçün Azərbaycan Ordusunda müvafiq qaydada zabit kimi vəzifəyə təyin edilərək həmin vəzifənin icrasına başladıqda.

5.5. Hərbi liseyi bitirən məzunlara bank hesabında yığılmış vəsaitin əlli faiz hissəsi onlar ali təhsil müəssisəsinə və ya hərbi kollecə qəbul olunaraq təhsilə başladıqda, qalan əlli faiz hissəsi bu Qaydanın 5.4.2-ci və 5.4.3-cü yarımbəndlərinə uyğun olaraq vəzifələrinin icrasına başladıqda, ali təhsil müəssisəsini və hərbi kolleci bitirmiş məzunlara isə onlar Azərbaycan Ordusunda müvafiq qaydada zabit və ya gizir (miçman) kimi vəzifəyə təyin edilərək həmin vəzifənin icrasına başladıqda kursantın (hərbi qulluqçunun) forması bu Qaydanın 4 və 5 nömrəli əlavələri ilə müəyyən edilən yazılı ərizəsi (4 və 5 nömrəli əlavələr) əsasında onun tərəfindən müəyyən edilən bank hesabına ödənilir.

5.6. Agent bank bu Qaydanın 5.5-ci bəndində nəzərdə tutulan hallara uyğun olaraq Müdafiə Nazirliyi tərəfindən verilmiş ödəniş tapşırığı əsasında 10 (on) əməliyyat günü müddətində bank hesabında mövcud olan vəsaitdən istifadəni təmin edir.

5.7. Bu Qaydanın 5.5-ci bəndində qeyd olunan ödənişlər məzunların bank hesabına tam şəkildə keçirildikdən sonra Universitetlə agent bank arasında həmin hesablar üzrə bağlanılmış müqaviləyə xitam verilir və bu barədə məzuna 10 (on) əməliyyat günü müddətində məlumat göndərilir.

5.8. Xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları bu Qaydanın 5.4-cü bəndində qeyd olunan hüququ əldə edə bilmədikdə onların bank hesabında yığılmış vəsait (hesablanmış faizlərlə birlikdə) dövlət büdcəsinə geri qaytarılır və Universitetlə agent bank arasında həmin hesab üzrə bağlanılmış müqaviləyə xitam verilir.

"Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi Qaydası"na

**1 nömrəli əlavə**

Müdafiə Nazirliyinin Milli Müdafiə
Universitetinin rektoru cənab
________________________________
__________________________ kursantı
(ali hərbi təhsil müəssisəsi, hərbi
kollec və ya hərbi lisey)
________________________________
(soyadı, adı, atasının adı)
Şəxsiyyət vəsiqəsi: seriya___________
nömrə __________________________
hansı orqan,
FİN ____________________ tərəfindən

**Ə R İ Z Ə**

Sizdən xahiş edirəm ki, hərbi təhsil aldığım müddətdə "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi Qaydası" ilə müəyyən edilən ailə üzvlərim üçün nəzərdə tutulan maddi yardımın___________________________ aşağıda qeyd
(maddi yardım alacaq şəxsin soyadı, adı, atasının adı)
olunan bank hesabına köçürülməsi üçün müvafiq göstəriş verəsiniz.

**Bank rekvizitləri:**
Manat hesabı ______________________
Bankın adı ________________________
SWİFT kodu _______________________
Müxbir hesab ______________________
Bankın kodu _______________________
Bankın VÖEN-i _____________________
Bankın ünvanı _____________________
Tel. _____________________________

____________ ________________________________
(imza) (kursantın soyadı, adı)

Tarix:

"Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi Qaydası"na

**2 nömrəli əlavə**

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin**
**Milli Müdafiə Universiteti**

**Hesabın açılması barədə**

**BİLDİRİŞ**

Bildirişin tarixi ______________________________

______________________________________ təhsil alan ______________________________
(kursantın təhsil aldığı təhsil müəssisəsinin adı) (kursantın soyadı, adı, atasının adı)

"Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi Qaydası"nın 5.1.4-cü yarımbəndinə uyğun olaraq ________________ Sizin üçün _______________ nömrəli hesab açılmışdır. (Bankın adı)
(hesab nömrəsi)

**Qeyd.** Yuxarıda göstərilən hesabınızda yığılmış vəsait üzrə istifadə hüququnuz bildirişdə göstərilən Qaydanın 5.5-ci bəndində nəzərdə tutulmuş hallarda yaranacaqdır.

**Milli Müdafiə Universitetinin**
**Maliyyə xidmətinin rəisi**
**Baş mühasib** ____________ ___________________________
(imza) (soyadı, adı)

“Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi Qaydası”na

**3 nömrəli əlavə**

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin**
**Milli Müdafiə Universiteti**

**Hesabda yığılan ödənişdən**

**ÇIXARIŞ**

Çıxarışın tarixi ______________________________

_________________________________________ təhsil alan____________________________
(kursantın təhsil aldığı təhsil müəssisəsinin adı) (kursantın soyadı, adı, atasının adı)

Sizin adınıza açılmış ________________ nömrəli bank hesabına ______ il tarixinədək
(hesab nömrəsi)
əsas hissə üzrə ________________ manat, faiz hissəsi üzrə _______________ manat olmaqla ümumilikdə _____________ manat məbləğində vəsait yığılmışdır.

**Qeyd.** Çıxarışın verildiyi tarixə yuxarıda göstərilən hesabınızda yığılmış vəsait üzrə istifadə hüququnuz “Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi Qaydası”nda nəzərdə tutulmuş hallarda yaranacaqdır.

**Milli Müdafiə Universitetinin**
**Maliyyə xidmətinin rəisi**
**Baş mühasib** ____________ _______________________
(imza) (soyadı, adı)

“Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi Qaydası”na

**4 nömrəli əlavə**

Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin rektoru cənab
______________________________
__________________________ kursantı
______________________________
(soyadı, adı, atasının adı)
Şəxsiyyət vəsiqəsi: seriya ___________
nömrə ___________________________
hansı orqan,
FİN ____________________ tərəfindən

**Ə R İ Z Ə**

Sizdən xahiş edirəm ki, ____________ hərbi liseyi bitirdiyimi və _________ hərbi kollecə (ali təhsil müəssisəsinə) daxil olduğumu nəzərə alaraq, hərbi liseydə təhsil aldığım müddətdə mənim adıma açılmış bank hesabında toplanmış vəsaitin əlli faizinin aşağıda qeyd olunan bank hesabına köçürülməsi üçün müvafiq göstəriş verəsiniz.

**Bank rekvizitləri:**
Manat hesabı _______________________
Bankın adı _________________________
SWİFT kodu ________________________
Müxbir hesab _______________________
Bankın kodu ________________________
Bankın VÖEN-i _____________________
Bankın ünvanı ______________________
Tel. ______________________________

_____________ (imza)    _________________________________ (kursantın soyadı, adı)

Tarix:

“Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi Qaydası”na

**5 nömrəli əlavə**

Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin rektoru cənab
__________________________________
______________________ hərbi qulluqçu
________________________________
(soyadı, adı, atasının adı)
Şəxsiyyət vəsiqəsi: seriya ___________
nömrə ___________________________
hansı orqan,
FİN _____________________ tərəfindən

## Ə R İ Z Ə

Sizdən xahiş edirəm ki, hərbi təhsilimi bitirdiyimi və Azərbaycan Ordusunda hərbi qulluqçu kimi vəzifəmin icrasına başladığımı nəzərə alaraq, təhsil aldığım müddətdə mənim adıma açılmış bank hesabında toplanmış vəsaitin aşağıda qeyd olunan bank hesabına köçürülməsi üçün müvafiq göstəriş verəsiniz.

**Bank rekvizitləri:**
Manat hesabı _______________________
Bankın adı _________________________
SWİFT kodu ________________________
Müxbir hesab _______________________
Bankın kodu ________________________
Bankın VÖEN-i _____________________
Bankın ünvanı ______________________
Tel. _______________________________

_____________ (imza)          _________________________________ (hərbi qulluqçunun soyadı, adı)

Tarix: